

*Adəm Asnı*
*(Əkbərov)*

## *Körpə qığıltısı*

Bilmirəm tilsimdir, ovsundur, nədir,
Sədasından könül bir divanədir.
Şirin bir nəğmədir, xoş təranədir -
Körpə qığıltısı.

Muğamdır..., neysəsi, rübab səsidir,
Büllur bir çeşmənin zümzüməsidir,
Sevdalı bir eşqin təntənəsidir -
Körpə qığıltısı.

Səsdə çalarabax! Bu nə ahəngdi!
Daş qəlbi mum edən təsnifdi, rəngdi,
Ən ecazkar ifadan da qəşəngdi -
Körpə qığıltısı.

Xoşbəxt məhəbbətin təcəssümüdür,
İki sevən qəlbin təbəssümüdür,
Vüsalın, muradın tərənnümüdür -
Körpə qığıltısı.

Həzin layla deyən şirin avazdır,
Təravətli bahar, çiçəkli yazdır,
"Kərəmi" oxuyan sədəfli sazdır -
Körpə qığıltısı.

Yaşamaq, yaratmaq, eşq həvəsidir,
Sevən ürəklərin zənguləsidir,
UcaTanrımızın şah bəstəsidir -
Körpə qığıltısı.

Aqillərin hikmətli kəlməsidir,
Sevib-sevilməyin fəlsəfəsidir,
Qarlı qışda ılıq yaz nəfəsidir -
Körpə qığıltısı, körpə qığıltısı.

## *Körpə güləndə*

Üz - gözündən gül ələnər,
Ətrafına səpələnər.
Ruhum coşub ləpələnər
Körpə güləndə.

Sanki gülər bütün aləm,
Unudular qüssə, ələm.
Yazmaq istər əldə qələm
Körpə güləndə.

Dərdlərimi dərdim bölür,
Öldürməyir, özü ölür.
Kədərin də üzü gülür
Körpə güləndə.

İstəkmi, sehirmi - nəsə
Məftunam bu dadlı səsə,
Bülbüllər də girər bəhsə
Körpə güləndə.

Fərqi yoxdur bahar, ya qış,
Tufan gəlsin, yoxsa yağış.
Hər yan olar naxış-naxış
Körpə güləndə.

Qəmin, qüssənin dərmanı,
Bunca özəl məlhəm hanı?!
Coşdurar damarda qanı
Körpə güləndə.

Yer üzündə bitsin savaş,
Qoy, olmasın qorxu, təlaş.
Unudular dava-dalaş
Körpə güləndə.

## *Aparacaq neçə səhərə*

Qovuşdum kəndimə, ölmərəm daha,
Burada ölməzlik deyildir baha,
Təmiz dağ havası, sərin bir kaha,
Baxışı oxşayan hər dağ, hər dərə,
Aparacaq məni, neçə səhərə.

Gözəllər gəncləri salır kəməndə,
Sanki gəncləşirəm yenidən mən də,
Ağacın altında yaşıl çəməndə,
İsti lavaş, üzlü pendir, şor-kərə,
Aparacaq məni, neçə səhərə.

Sakit gecələrin şirin yuxusu,
Gül-çiçəyin məstedici qoxusu,
Dağ döşündə şəffaf bulaq, sərin su,
Min dərdin dərmanı yüz cür ot, tərə
Aparacaq məni, neçə səhərə.

Gör necə əlvandı dağların rəngi,
Yamacların gül-çiçəkli çələngi,
Yağışa bax, qarşında çay pürrəngi,
İldırım gurlayıb çəkdikcə nərə,
Aparacaq məni, neçə səhərə.

Xəyallar qoynunda sakit gecələr,
Qayğılar yox olar, ruhun dincələr,
Yüngülləşən qəlbim, xoş düşüncələr,
Köklənərək nikbin tövrə, təhərə,
Aparacaq məni, neçə səhərə.

Gün boyu gördükcə gülər üzləri,
Riyadan, yalandan uzaq gözləri,
Eşitdikcə xoş, səmimi sözləri,
Gülər üzlə salam verdikcə hərə,
Aparacaq məni, neçə səhərə.